# ELAN

**Bakı şəhəri** **29 sentyabr 2022-ci il**

## “2022/2023-cü illərdə təhsilin inkişafı üzrə ictimai təşəbbüslərin dəstəklənməsi” qrant müsabiqəsi

Prioritet istiqamətlər üzrə təhsilin inkişafına xidmət edən ictimai iştirakçılığın təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi “2022/2023-cü illərdə təhsilin inkişafı üzrə ictimai təşəbbüslərin dəstəklənməsi” qrant müsabiqəsi elan edir.

**Müsabiqənin büdcəsi 950000 manat təşkil edir. Müsabiqənin keçirildiyi müddət ərzində artıq Elm və Təhsil Nazirliyi tərəfindən verilmiş digər qrantlar üzrə xərclərdə qənaət yaranarsa, müsabiqə büdcəsinin artırılması ehtimalı vardır.**

**Müsabiqə aşağıdakı nominasiyalar üzrə həyata keçirilir:**

1. Təhsilalanlar arasında ictimai fəallığın dəstəklənməsi;
2. Məktəb nüfuzunun artırılması və məktəb icmasının inkişaf etdirilməsi;
3. Reytinqli Kütləvi Açıq Onlayn Kursların (MOOCs) Azərbaycan dilinə tərcüməsi, dublyajı, istifadəyə verilməsi və ya yerli mütəxəssislər tərəfindən açıq onlayn kursların hazırlanaraq həmin platformalarda yerləşdirilməsinin təmin olunması.

**Müsabiqə iştirakçılarına verilən tələblər:**

1. Müsabiqə iştirakçısı Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış qeyri-hökumət təşkilatı olmalıdır;
2. Müsabiqədə iştirak edən qeyri-hökumət təşkilatının dövlət qeydiyyatının reyestr çıxarışının surəti təqdim edilməlidir;
3. Müsabiqədə iştirak edən qeyri-hökumət təşkilatının dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin surəti təqdim edilməlidir;
4. Müsabiqədə iştirak edən qeyri-hökumət təşkilatının nizamnaməsinin surəti təqdim edilməlidir;
5. Müsabiqədə iştirak edən qeyri-hökumət təşkilatı adından sənədləri təqdim etmiş şəxsin təşkilatın rəhbəri təyin edilməsi haqqında təsdiqedici sənədin surəti təqdim edilməlidir;
6. Müsabiqədə iştirak edən qeyri-hökumət təşkilatının bank rekvizitləri və VÖEN-i barədə məlumat təqdim edilməlidir.

**Müsabiqəyə təqdim olunan layihə təkliflərinə verilən tələblər:**

1. Layihə təklifi icra planı və xərclər smetası əhatə olunmaqla "Forma-1" əsasında tərtib edilməlidir;
2. Layihə təklifi müşayiətedici məktubun surəti ilə təqdim edilməlidir. Müşayiətedici məktub qeyri-hökumət təşkilatının rəsmi blankında tərtib edilməli, imzalı və möhürlü şəkildə təqdim edilməlidir;
3. Müşayiətedici məktubda layihənin hansı nominasiyaya aid olduğu qeyd edilməlidir;
4. Layihə çərçivəsində intellektual xidmətlər göstərəcək mütəxəssislərin tərcümeyi-halları "Forma 2"-yə uyğun təqdim edilməli və formanın sonundakı əməkdaşlığa dair bəyannamə mütəxəssis tərəfindən imzalanmalıdır;
5. Layihə təklifi 3 aydan 12 ayadək müddəti əhatə etməlidir;
6. Layihə təklifinin büdcəsi maksimum 100000 (yüz min) manat təşkil etməlidir;
7. Hər nominasiya üzrə eyni qeyri-hökumət təşkilatı tərəfindən təqdim edilən layihə təklifi birdən çox olmamalıdır.

**Müsabiqəyə təqdim olunacaq sənədlərin qəbulu üçün son müddət:** 14.10.2022-ci il

Bu tarixə ən azı 3 (üç) iş günü qalmış təqdim edilən sənədlərə baxış keçiriləcək, iştirak tələblərinə və layihə təkliflərinə verilən tələblərə uyğunsuzluq aşkar edildiyi təqdirdə, 1 (bir) iş günü ərzində iştirakçıya məlumat veriləcəkdir. Müsabiqə iştirakçısının 14.10.2022-ci il tarixinədək uyğunsuzluq aşkar edilmiş sənədləri yenidən təqdim etmək imkanı olacaqdır. Bu zaman ən son təqdim edilmiş sənədlər qiymətləndirmə üçün əsas götürüləcəkdir.

Sənədlərin qəbulu musabige@edu.gov.az elektron poçtu vasitəsilə həyata keçiriləcəkdir.

**Müsabiqəyə təqdim olunan sənədlər 3 ardıcıl mərhələdə qiymətləndirilir.**

**1-ci Mərhələ:** Bu mərhələdə müsabiqə iştirakçılarına verilən tələblər qiymətləndirilir. Əgər müsabiqə iştirakçılarına verilən bütün tələblər ödənilirsə, müsabiqə iştirakçısının sənədləri növbəti qiymətləndirmə mərhələsinə buraxılır. Hər hansı tələb ödənilmədikdə sənədlər növbəti qiymətləndirmə mərhələsinə buraxılmır.

**2-ci Mərhələ:** Bu mərhələdə layihə təkliflərinə verilən tələblər qiymətləndirilir. Əgər layihə təklifinə verilən bütün tələblər ödənilirsə müsabiqə iştirakçısının sənədləri növbəti qiymətləndirmə mərhələsinə buraxılır. Hər hansı tələb ödənilmədikdə sənədlər növbəti qiymətləndirmə mərhələsinə buraxılmır.

**3-cü Mərhələ:** Bu mərhələdə layihə təkliflərinin məzmunu 100 ballıq şkala üzərindən aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

— Layihənin əsaslandırılması, məqsəd və vəzifələrinin müsabiqə istiqamətlərinə uyğunluğu **(0-10 bal)**;
— Planlaşdırılmış fəaliyyətlərin reallığı, layihənin məqsəd və vəzifələrinə, gözlənilən nəticələrinə uyğunluğu **(0-15 bal)**;
— Layihənin faydalılığı **(0-25 bal)**;
— Layihənin maliyyə səmərəliliyi **(0-25 bal)**;
— Layihənin monitorinqi və qiymətləndirilməsi, risklərinin idarə olunması metodologiyasının səmərəliliyi **(0-15 bal)**;
— Layihənin davamlılığı **(0-10 bal)**.

**Qrant qazanan layihələrin müəyyənləşdirilməsi:**

- Qrant qazanan layihələr 3-cü Mərhələyə buraxılan layihələr içərisindən müəyyənləşdirilir;
- 3-cü Mərhələdə keçid balı 50 bal təşkil edir;
- Keçid balını toplayan və qrant müsabiqəsinin büdcəsinə sığan ən yuksək bala malik layihələr qrant qazanır.

**Ünvan:** Bakı şəhəri, Xətai prospekti 49

**Elektron poçt:** musabige@edu.gov.az